***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus Cenevrədə ÜST üzv dövlətlərinin nümayəndələri üçün keçirdiyi brifinqdə bildirib ki, təşkilat tərəfindən dünya əhalisinin ən azı 10 faizinin sentyabr ayının sonuna qədər koronavirus əleyhinə peyvəndlə əhatə olunması hədəfinə nail olmaq mümkündür və bu istiqamətdə irəliləyiş əldə edilib. O deyib: "Biz 10 faiz hədəfimizə nail ola bilərik, lakin bir şərtlə ki, bütün üzv ölkələr həmrəylik göstərərək, birlikdə çalışsınlar". Baş direktor, bununla bağlı, bu məqsədə doğru gedən müsbət nəticələrə diqqət yetirib. "Biz irəliləyişə nail oluruq", – deyə Tedros Qebreyesus bildirib. "Artıq 140 ölkənin əhalisinin ən azı 10 faizi peyvənd olunub".***

# Ölkəyə gələn hər kəsdən COVID pasportu və immun sertifikatı tələb olunacaq

ÜST rəhbəri xatırladıb ki, bu məsələdə qlobal məqsəd, hər bir ölkəyə sentyabr ayının sonuna qədər əhalisinin ən azı 10 faizini, ilin sonuna qədər ən azı 40 faizini və dünya əhalisinin 70 faizini gələn ilin ortasına qədər peyvənd etməyə kömək etməkdən ibarətdir. O, “dünyanın bir çox yerində” koronavirus əleyhinə peyvənd etmənin səviyyəsinin iki faizdən az olduğu faktını “qəbuledilməz” adlandırıb. “Bax buna görə biz ən azı sentyabr ayının sonuna qədər buster dozalara qlobal moratorium elan etməyə çağırırdıq”, – deyə Tedros Qebreyesus vurğulayıb.

Son günlər yoluxma və ölüm sayının həddsiz yüksəlməsi böyük narahatlıq yaradır. İnsanlar vaksinə hələ də inamsız yanaşırlar. Bəziləri ürəyinin, başqası ciyərinin xəstə olduğunu bəhanə edir. Ürək – damar xəstələrindən COVID – 19 infeksiyası əleyhinə peyvənd vurdurub – vurdurmamaqla bağlı suallar eşidirik. Ürək – damar cərrahı, Mərkəzi Klinik Xəstəxananın baş həkimi, professor Kamran Musayev bildirib ki, cərrahi əməliyyat keçirib – keçirməməsindən asılı olmayaraq, ürək – damar xəstələrinin hamısı peyvənd vurdura bilərlər. Ötən iki il ərzində koronavirusa hamının yoluxma ehtimalı olduğunu, lakin bəzi qrupların onu daha ağır keçirdiyini öyrəndik. Ağır keçirən qruplar risk qrupları adlanır. Təəssüf ki, risk qrupları siyahısının ilk pilləsində ürək və damar xəstələri dayanırlar. Bu, istər əməliyyat olunmuş, istərsə də əməliyyat olunmamış olsun, fərq etmir. Əgər bir şəxsdə ürək və damar xəstəliyi varsa və ya nə vaxtsa həmin xəstəliyi keçiribsə, bu o deməkdir ki, koronavirusa yoluxduğu zaman ürək və damar xəstəlikləri olmayanlara nisbətən onun COVID – 19 - u daha ağır keçirmə ehtimalı çoxdur. Həmin xəstələr koronavirusa yoluxan zaman onlar arasında ağırlaşma və ölüm faizi digərləri ilə müqayisədə daha yüksək olur.

Professor, həmçinin bildirib: “Hazırda xəstəxanalarda COVID – 19 - a görə müalicə alan xəstələrin 96 – 97 faizi məhz peyvənd olunmayanlardır. Peyvənd 100 faiz qorumur. Lakin hazırda dünyada, o cümlədən ölkəmizdə “Delta” ştammının olduğu dövrdə koronavirusdan ölən xəstələr arasında demək olar ki, vaksinasiyadan keçənlər yoxdur. Bu, peyvəndin kifayət qədər effektli olduğunun göstəricisidir. Ona görə də hər kəsi, xüsusilə ürək – damar xəstələrini vaksinasiyada aktiv iştiraka dəvət edirəm. Məlum məsələdir ki, peyvəndlərin əks - göstəriş olduğu məqamlar var. Qeyd etmək istəyirəm ki, ürək - damar xəstəlikləri arasında koronavirus əleyhinə vaksinə əks - göstəriş olan bir hal yoxdur”.

Əslən Cənubi Azərbaycandan




olan, Almaniya “Beynəlxalq Humanitar Tibbi yardım” təşkilatının Azərbaycan üzrə rəhbəri, Amerika MİR humanitar tibbi cəmiyyətinin sədri, professor Ağabəy Azərbaycani koronavirus əleyhinə aparılan vaksinasiya ilə bağlı soydaşlarımıza müraciət edib. Bildirib ki, vaksin vurdurmaqdan imtina etmək heç bir məntiqə və ağıla sığmır. Vaksin təbabətin ən uğurlu kəşfidir və əsrlər boyu bəşəriyyəti yalnız peyvənd vasitəsi ilə amansız yoluxucu xəstəliklərin pəncəsindən qurtarmaq mümkün olub. Professor vaksinasiyadan imtina edən şəxsləri dəli adlandırıb.

Qeyd edək ki, Nazirlər Kabineti “Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” 2021- ci il 26 may tarixli 151 nömrəli qərara dəyişiklik edib. Qərara əsasən, 150 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində iştirak edən yaşı 18-dən yuxarı bütün qonaqların COVID –19-a qarşı tam peyvənd olmaları və ya COVID–19-dan sağalaraq immunitetə malik olmaları barədə təsdiqedici sənədi olmalıdır.

Xatırladaq ki, əvvəllər 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlikdə iştirak üçün COVID – 19 pasportunun təqdim olunması tələb olunmurdu. Qeyd olunan nəzarət tədbirləri həmin qurumlar tərəfindən 50 nəfərdən 150 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində keçirilirdi. Amma indi koronavirusla bağlı statistik vəziyyət dəyişdiyinə görə, qərarda da dəyişiklik etmək lazım olub. Bu hal yalnız bizim ölkədə belə deyil.

Rusiyanın operativ qərargahının yaydığı məlumata görə, ölkədə koronavirusa yoluxanların sayı artaraq, 6 milyon 863 min 541 nəfərə çatıb. Virusdan ölənlərin sayı isə daha 799



nəfər artaraq 180 min 840-a yüksəlib. Qeyd edək ki, Rusiyada indiyədək koronavirusa yoluxan 6 milyon 131 min 446 nəfər sağalaraq normal həyata qayıdıb.

Qonşu Gürcüstanda isə son sutkada daha 4 min 247 nəfərin koronavirusla bağlı testi pozitiv nəticələnib, 74 nəfər vəfat edib. Bu barədə ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzindən bildirilib. Bununla da qonşu ölkədə COVID–19-a yoluxanların sayı 540 min 449-a, ölənlərin sayı isə 7 min 175-ə yüksəlib.

Ölkəmizdə də vəziyyət gərgindir. Ciddi və narahatedici göstəricilərlə üz – üzəyik. Belə olmaz. İnsanlar nə düşünürlər? Son 5 günə nəzər salsaq, hansı mənzərəni görərik? – Avqustun 29 - da 4010 yoluxma faktı qeydə alınıb, 2898 nəfər müalicə olunaraq sağalıb. Təəssüf ki, həmin gün 41 nəfər vəfat edib. Sentyabrın 1-də 3845 yoluxma, 41 ölüm halı qeydə alınıb, 3876 nəfər sağalıb. Sentyabrın 2- də isə COVID–19-a 3759 yoluxma faktı qeydə alınıb, 3473 nəfər müalicə olunaraq sağalıb, 45 nəfər vəfat edib. Sentyabrın 3-dək ölkəmizdə 432 min 495 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 373 min 475 nəfər müalicə olunaraq sağalıb, 5 min 722 nəfər vəfat edib. Hazırda tibb müəssisələrində aktiv xəstə sayı 53 min 298 nəfərdir. Hər gün 40-dan çox insanın virus ucbatından dünyasını dəyişməsi məhz qorunmamağın, vaksinə inanmamağın nəticəsidir.

Son məlumatlara görə, COVID – 19 pasportunun xaricdən Azərbaycana qayıdan vətəndaşlarımızın ölkəyə daxil olması üçün yetərli olmadığı məlum olub. Pasportla yanaşı koronavirus testinin neqativ nəticələri ilə bağlı sənəd də ölkəmizə səfər üçün əsas vermir. Hava limanında bu iki sənəddən əlavə immun testindən keçmək də tələb olunur. Qeyd edək ki, xaricdən qayıdan vətəndaşlarımız dünyanın digər ölkələrinin hava limanlarında bu cür durumla üzləşmədiklərini bildiriblər. Ölkəyə səfərlərlə bağlı qaydalar Nazirlər Kabineti tərəfindən təsdiqlənib. Həmin qaydalarda COVID pasportu və koronavirus testinin nəticələri ilə yanaşı immun sertifikatı da tələb olunur.

Ölkəmizə girişin ciddi qorunması sevindirici haldır. Bununla belə sual yaranır: Əgər vətəndaşın COVID–19 pasportu varsa, eləcə və koronavirus testinin nəticələri neqativdirsə, immun sertifikatının tələb olunmasına ehtiyac varmı? Mütəxəssislər belə düşünürlər ki, immun sertifikatının tələb olunmasının əsas səbəbi saxta peyvənd pasportlarıdır. Kimsə gedib, saxta peyvənd pasportu ala bilər, amma qan analizi verən zaman bilinir ki, immunitet yoxdur və saxta pasport alıb. Bu, saxta peyvənd pasportlarına qarşı bir mübarizədir.

Hazırda üçüncü doza peyvəndin vurulmasına dair söhbətlər getdiyinə görə, “Pfizer”ın yayımladığı yazılı açıqlamanı da diqqətə çatdırmaq istərdik. Açıqlamaya görə, aparılan araşdırmalarda məlum olub ki, ikinci dozadan beş və ya səkkiz ay sonra vurulan üçüncü doza antitel səviyyəsini 3 dəfə artırır. Hələ ki, bütün detalları ilə yayımlanmayan araşdırmada üçüncü dozanın yan təsirlərinin ikincidən fərqli olmadığı da bildirilib. Qeyd edək ki, “Pfizer – BioNTech” vaksininin üçüncü dozasından ABŞ - da yalnız 12 yaş və yuxarı immun sistemi xəstəliyi olanlarda istifadəsinə icazə verilir.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***